# Azərbaycanlı tarixçi alim beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir

**Sankt-Peterburqdakı "Artilleriya, Mühəndis və Rabitə Qoşunları Hərbi Tarix Muzeyi"ndə Rusiya Müdafiə Nazirliyinin Mədəniyyət İdarəsinin və Rusiya Raket və Artilleriya Elmləri Akademiyasının təşkilatçılığı ilə "Müharibə və silahlar, yeni tədqiqatlar və materiallar" adlı XII beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.**

Konfrans faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuşdur. 130 alim və tədqiqatçının iştirak etdiyi konfransda "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyinin direktoru, ICOMAM Beynəlxalq Komitəsinin İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov üç elmi məruzə ilə çıxış etmişdir. Məruzədə XVIII əsrin sonu və XIX əsrin əvvəllərində baş verən hadisələrdən, Azərbaycan xanlıqlarının Rusiya ilə İran arasında bölünməsi prosesindən danışılmışdır. Digər məruzələr "Avropanın azad edilməsində Azərbaycan SSR döyüşçüləri" II Dünya müharibəsində qələbəyə Azərbaycan SSR-nin töhfəsi, Qafqaz və Xəzəryanı regionlardakı xalqların qarşılıqlı fəaliyyəti" mövzularına həsr olunmuşdur. P.Gözəlov




bildirmişdir ki, II Dünya müharibəsi illərində Azərbaycan SSR-dən hərbi ehtiyaclar üçün 75 milyon tondan çox neft göndərilmişdir. Böyük itkilər bahasına və inanılmaz şücaətlə nasist qoşunlarına layiqli cavab verilmiş və müharibənin gedişatı tamamilə dəyişmişdir. Məhz buna görə faşizm üzərində Qələbə günü Azərbaycan Respublikasında hər il dövlət səviyyəsində qeyd olunur.

Pərvin Gözəlov 2015-ci ildə həmin muzeyin fondundan Azərbaycanın elmi-mədəni həyatında ilk dəfə olaraq şəxsi təşəbbüsü ilə ölkəmizin dövlətçiliyi tarixinə dair materialları, eksponatları müəyyən edərək nəşr etdirib. Müəllifin "Artilleriya, Mühəndis və Rabitə Qoşunları, Hərbi Tarix Muzeyində"ki araşdırması Rusiya Federasiyası muzeylərində Azərbaycanın tarixi bayraqlarının tədqiqi istiqamətində aparılan ilk araşdırmadır.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.-12 iyun (№119).- S.11.